# TAĞIYEV ŞAHİN TALIB OĞLU



3 fevral 1949-cu ildə Tərtər rayonunda anadan olmuşdur. İlk təhsilini 1956-cı ildə Bakının Bülbülə qəsəbəsindəki 208 saylı orta məktəbdə almış, 12 saylı internat məktəbində davam etdirmişdir. Səkkizinci sinfi bitirib Bakı Energetika Texnikumuna qəbul olmuşdur. 1969-cu ildə texnikumu bitirir və təyinatla Udmurt vilayətinə göndərilir. O, hərbi xidmətini Novosibirskdə keçmiş və orada zabitlik kursunu bitirmişdir. Raket-artileriya qoşun hissələrində xidməti nəticəsində böyük təcrübə qazanmışdır. Ordu sıralarından tərxis olunduqdan sonra Bakı Mayesiz Transformatorlar Zavodunda işləmişdir. Ermənilər torpaqlarımıza hücum etdiyi dövrdə, 1992-ci ildə o, yenicə yaradılan “Qurtuluş” batalyonunun tərkibində Tərtər, Seysulan, Yarımca, Levonarx döyüşlərində iştirak etmişdir. Ş.Tağıyev 1992-ci ilin mart ayında “Qurtuluş” batalyonuna komandir təyin edilir. Batalyon 350 əsgər və zabiti birləşdirirdi. Müharibədə göstərdiyi yüksək şücaətə, mərdliyə və igidliyə görə Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə polkovnik-leytenant Tağıyev Şahin Talıb oğlu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Ailəlidir. İki övlad atasıdır.